**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ**

# QƏRAR

№ 8/7

Bakı şəhəri 05 aprel 2018-ci il

AMEA-nın həqiqi üzvü Heydər Hüseynovun
110 illik yubileyi haqqında

2018-ci il aprelin 03-də görkəmli filosof alim fəlsəfə üzrə elmlər doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü Heydər Hüseynovun anadan olmasının 110 illiyi tamam olur.

O, 1927-1931-ci illərdə Pedaqoji Universitetin həm şərqşünaslıq, həm də pedaqoji fakültələrinin tələbəsi olmuşdur.

Heydər Hüseynov 1936-1940-cı illərdə SSRİ Elmlər Akademiyası Azərbaycan Filialının Ensiklopediya və Lüğətlər İnstitutunun direktoru olmuşdur. O, 1939-cu ildə Tiflis şəhərində "Mirzə Fətəli Axundovun fəlsəfi görüşləri" adlı namizədlik dissertasiyası müdafiə edərək fəlsəfə elmləri namizədi elmi dərəcəsini, 1944-cü ildə isə professor elmi adını almışdır. 1945-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

Akademik H.Hüseynov 1939-1945-ci illərdə SSRİ Elmlər Akademiyası Azərbaycan Filialının sədr müavini, 1945-1950-ci illərdə Azərbaycan SSR Elmlər Akademiyasının vitse-prezidenti, eyni zamanda İctimai Elmlər Bölməsinin sədri olmuşdur.

Akademik Heydər Hüseynov tarix və fəlsəfə elminin inkişafına böyük töhfələr vermişdir.

Heydər Hüseynovun ölkəmizdə ictimai və humanitar elmlərin, xüsusilə fəlsəfənin inkişafındakı xidmətləri böyükdür. Onun təşəbbüsü və təşkilatçılığı ilə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsi nəzdində Fəlsəfə şöbəsi (1945), 1947-ci ildə isə filologiya fakültəsində Məntiq və psixologiya şöbəsi açılmış, Azərbaycan Elmlər Akademiyasının İctimai Elmlər Bölməsi tərkibində Fəlsəfə İnstitutu (1945) yaradılmışdır.

O, fəlsəfəyə, onun ayrı-ayrı problemlərinin şərhinə və məşhur nümayəndələrinə, dünya klassiklərinə, Azərbaycan ədəbiyyatına, mütəfəkkir və filosofların irsinin araşdırılmasına və s. həsr edilmiş çox sayda əsərlərin müəllifidir. Onun Azərbaycan fəlsəfəsində ən böyük xidməti yeni istiqamətin – millətin özünüdərkinə xidmət edən, xalqda öz şanlı tarixi üçün milli qürur, vətənpərvərlik duyğuları oyadan bir sıra əsərləri yazması olmuşdur. Xüsusilə onun sonuncu

və şah əsəri hesab edilən "Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən" kitabı milli fəlsəfənin, vətən fəlsəfəsinin bir elm kimi əsasını qoymuşdur.

O, Azərbaycan tərcümə məktəbinin əsasını qoymuş, ilk "Azərbaycanca-rusca və rusca-azərbaycanca lüğət"in redaktorlarından biri olmuşdur.

Akademik Heydər Hüseynov Bəhmənyar, Nizami Gəncəvi, Füzuli, Abbasqulu ağa Bakıxanov, Mirzə Kazım bəy, Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi haqqında geniş tədqiqat işləri aparmışdır.

Dəfələrlə müxtəlif orden və medallarla təltif edilən Heydər Hüseynov 4 cildlik "Rusca azərbaycanca lüğət"ə görə Dövlət mükafatı və iki dəfə Stalin mükafatı laureatı olmuşdur (1948 və 1950-ci illərdə).

AMEA-nın həqiqi üzvü Heydər Nəcəf oğlu Hüseynovun Azərbaycan fəlsəfə elminin inkişafındakı xidmətlərini nəzərə alaraq və anadan olmasının 110 illiyi ilə əlaqədar Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. AMEA-nın Fəlsəfə İnstitutuna (fəlsəfə üzrə elmlər doktoru İlham Məmmədzadə) tapşırılsın ki, AMEA-nın həqiqi üzvü Heydər Nəcəf oğlu Hüseynovun 110 illik yubileyi ilə əlaqədar elmi konfrans keçirilsin.
2. AMEA-nın həqiqi üzvü Heydər Nəcəf oğlu Hüseynovun 110 illik yubileyi ilə əlaqədar Fəlsəfə İnstitutunda elmi konfrans keçirilsin.
3. AMEA-nın "Elm" Nəşriyyatına (Hafiz Abıyev) tapşırılsın ki, filologiya üzrə elmlər doktoru Fəridə Səfiyevanın akademik Heydər Hüseynovun həyatı və elmi fəaliyyətinə həsr olunmuş monoqrafiyasının nəşri təmin edilsin.
4. AMEA Rəyasət Heyəti aparatının İctimaiyyətlə əlaqələr və elmin populyarlaşdırılması idarəsinə (Zülfüqar Fərzəliyev) tapşırılsın ki, kütləvi informasiya vasitələrində alimin həyat və yaradıcılığına həsr edilmiş məqalələr dərc edilsin.
5. Qərarın icrasına nəzarət AMEA-nın vitse-prezidenti, AMEA-nın həqiqi üzvü İsa Həbibbəyliyə həvalə edilsin.

AMEA-nın prezidenti — akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi — akademik Rasim Əliquliyev

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ PROTOKOL ŞÖBƏSİ MƏRKƏZİ APARAT